# Misirin Baş müftisi AİI-ni ziyarət edib

Prezident İlham Əliyevin təşəbbüsü və himayədarlığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında keçirilən Dünya dini liderlərinin qlobal Bakı Sammitində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Misirin Baş müftisi Nəzir Məhəmməd Ayad və Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin xarici əlaqələr üzrə müşaviri, Misirdə Azərbaycan diasporunun sədri Seymur Nəsirov Azərbaycan İlahiyyat İnstitutunu (AİI) ziyarət ediblər.

AİI rektoru Aqil Şirinov qonaqları salamlayaraq onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. İnstitut rəhbəri AİI-nin fəaliyyəti, hədəfləri haqqında geniş məlumat verib, mövcud ixtisaslar barədə danışıb. Görüşdə Misir-Azərbaycan əlaqələrinin inkişafı, "əl-Əhzər" Universiteti ilə gələcəkdə əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı fikir mübadiləsi aparılıb.

Daha sonra qonaqların Azərbaycan İlahiyyat İnstitutu və Bakı İlahiyyat Kollecinin tələbələri ilə görüşü təşkil olunub.

Rektor çıxış edərək "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında keçirilən dini liderlərin qlobal Bakı Sammitinin ölkəmizdə təşkil olunmasının əhəmiyyətini diqqətə çatdırıb. Sammit çərçivəsində dini liderlərin İlahiyyat İnstitutunda tələbələrlə görüşünün təqdirəlayiq hadisə olduğunu vurğulayıb.





Misirin Baş müftisi Nəzir Məhəmməd Ayad çıxışında islamın insan haqqında toxunduğu mövzular barədə söhbət açıb, Allahın hər bir şəxsə ən böyük ərməğanının elm olduğunu diqqətə çatdırıb. İnsanın yaradılanların ən üstünü (əşraful-məxluqat) olduğunu və kainatın bütünlüklə insana xidmət etdiyini vurğulayan müfti dini hökmlərdən və onların məqsədindən (məqasidüş-şəriə) də ətraflı bəhs edib.

Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin xarici əlaqələr üzrə müşaviri, Misirdə Azərbaycan diasporunun sədri Seymur Nəsirov çıxışında elmin əhəmiyyəti, ümumilikdə Qurani-Kərimdə biliyə təşviq edən ayələr haqqında ətraflı danışıb. S.Nəsirov cahilliyin törətdiyi fəsadlara toxunub, tələbələrə əsl ziyalı kimi yetişmələri üçün səylə bilik qazanmağı tövsiyə edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 7 noyabr (№ 246).- S.16.